# "Qəbələ" idman klubunun fəaliyyətə başlamasından 15 il ötür

2005-ci il sentyabrın 1-də peşəkar klub kimi Ədliyyə Nazirliyində qeydiyyatdan keçən komandanın əsası daha əvvəl qoyulub. 1995-ci il iyulun 3-də "Göy Göl" adı ilə yaradılan komanda 10 ildən sonra peşəkar kluba çevrilib.

Klub 2005-ci il sentyabrın 5-də AFFA-da qeydiyyatdan keçib. 2005-2006-cı illər mövsümündə Azərbaycan çempionatının I dəstəsində debüt edən klubun adı 2006-cı ilin əvvəlində dəyişdirilərək "Gilan" qoyulub. Birinci mövsümdə Xanları təmsil edən klub I Dəstənin çempionu adına yiyələnərək, Premyer Liqaya vəsiqə qazanıb.

2006-cı ilin yayında Xanlardan Qəbələyə köçən komanda 2007-ci il avqustun 31-də "Gilan" adını "Qəbələ" ilə əvəzləyib.

Premyer Liqada 15-ci mövsümünü keçirən klub bu müddətdə dəfələrlə mükafatçılar sırasında yer alıb. Komanda 2013-2014-cü, 2014-2015-ci, 2015-2016-cı illər mövsümlərində çempionatın bürünc mükafatını əldə edən "Qəbələ" 2016-2017-ci və 2017-2018-ci illər mövsümlərində gümüş medal qazanıb. "Qəbələ"nin futbolçuları da Azərbaycan çempionatının bombardiri adına yiyələnib. Komandanın uğurları ölkə kubokunda da əksini tapıb. 2018-2019-cu illər mövsümünün Naxçıvanda təşkil olunan final matçında "Sumqayıt"ı 1:0 hesabı ilə məğlub edən "Qəbələ" ilk tituluna yiyələnib. "Qırmızı-qaralar" 2013-2014-cü, 2016-2017-ci, 2017-2018-ci illər mövsümlərində kubokun finalına qədər irəliləyib.

"Qəbələ" milli komandalar üçün də baza klublarından birinə çevrilib. Əsasən aşağı yaş qruplarından olan yığmalara verdiyi oyunçuları ilə diqqət çəkən klubumuz ölkənin əsas millisində də təmsil olunub. Həmçinin futbolçularımız Avropa və Afrikanın müxtəlif ölkələrinin yığmalarında da çıxış ediblər. Üç futbolçumuz - Rəşad Sadiqov, Tellur Mütəllimov, Elvin Camalov U-21 millisinin heyətində İslam Həmrəyliyi Oyunlarının çempionu adını qazanıb. Azərbaycanın əsas yığmasında "Qəbələ"ni 26 oyunçu təmsil edib. Cavid Hüseynov daha çox - 16 matça çıxıb. Mahir Şükürov "qırmızı-qara" forma geyindiyi dövrdə yığmada daha çox - 3 top vurub.

Qəbələ şəhər stadionu iki dəfə Azərbaycan kubokunun final oyununa ev sahibliyi edib. Bu, 2014-2015-ci və 2017-2018-ci illər mövsümlərinə təsadüf edib. Avrokubokların təsnifat görüşlərini qəbul edən arenada əsas komandanın iştirakı ilə beynəlxalq "Jalə" kuboku, 3 dəfə 15 yaşadək futbolçular arasında "Qəbələ" kuboku turniri keçirilib ki, burada Avropanın bir sıra tanınmış klubları çıxış edib. Burada Azərbaycanın müxtəlif yaş qrupları üzrə yığmalarının, həmçinin Premyer Liqa klublarının təlim-məşq toplanışları və yoxlama oyunları da keçirilib.

2013-cü ilin əvvəlindən İdman Klubu kimi fəaliyyətə başlayan "Qəbələ"də döyüş növləri - boks, taekvondo, cüdo, sambo, karate, əlbəyaxa döyüş, həmçinin atıcılıq üzrə bölmələr də mövcuddur.

Qeyd edək ki, "Qəbələ"nin prezidenti Fariz Nəcəfovdur. 2008-ci ildən vitse-prezident kimi fəaliyyət göstərən F.Nəcəfov ötən ilin aprelindən klubun rəhbəridir. Buna qədər isə kluba Tale Heydərov rəhbərlik edib. Klubun inkişafında, Azərbaycan futboluna verdiyi töhfədə bu iki şəxsin müstəsna xidmətləri olub.

# Xatirə turniri

Qəbələ rayon Gənclər və İdman İdarəsi 9 sentyabr 2020-ci il tarixdə gənclər arasında "General Polad Həşimovun" xatirəsinə həsr edilmiş basketbol üzrə xatirə turniri keçirmişdir. Turnirin keçirilməsində məqsəd Tovuz istiqamətində gedən döyüşlərdə şəhid olmuş General Polad Həşimovun əziz xatirəsini uca tutmaq, şəhid olmuş əsgər və zabitlərimizin xatirəsini əbədiləşdirmək, ermənilərin ölkəmizə qarşı təcavüzünü ictimaiyyətin diqqətinə bir daha çatdırmaq, həmçinin yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etməkdən ibarətdir.

Turnir iştirakçıları öncə General-mayor Polad Həşimovun və Azərbaycan torpaqlarının müdafiəsi uğrunda həlak olmuş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Daha sonra tədbirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, Azərbaycanın torpaqlarının müdafiəsi uğrunda şəhid olmuş General-mayor Polad Həşimovun keçdiyi döyüş yollarından danışmışdır. Həmçinin yarış iştirakçılarının nəzərinə çatdırıldı ki, şəhidlərimiz öz şücaətləri ilə xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Xatirə turnirinin sonunda Mirzəbəyli kənd komandası I yerə, Qəbələ şəhər 5 saylı tam orta məktəbin komandası II yerə və Qəbələ Olimpiya İdman Kompleksinin komandası III yerə layiq görülmüşlər.

Qaliblərə rayon Gənclər və İdman İdarəsinin kubok və diplomları təqdim edilmişdir.

**Mübariz ABBASOV,**
**Gənclər və İdman İdarəsi.**

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Məsimova Rəsmiyyə Ələfsər qızına** verilmiş JN seriyalı 117F nömrəli (kod 40616018) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Ağayev Elşad Əhəd oğluna** verilmiş JN seriyalı 0051 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ şəhər Fizuli küçəsi-ev 18-də yaşayan **Əfəndiyev Sabir Eyyub oğluna** məxsus inventar nömrəsi 1055, **şəxsi mülkiyyət hüququ ilə evlərin texniki inventarizasiya və qiymətləndirilməsinə aid pasport** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Kazımov Əlləddin Cəmaləddin oğluna** verilmiş JN seriyalı 009F nömrəli (kod 40601004) **torpağa mülkiyyətə verilməsinə dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Kiçik Pirəli kənd sakini **Nəsirov Qiyas İlyas oğluna** verilmiş JN seriyalı 114 nömrəli (kod 40602028) **dövlət aktı itdiyi** üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Məmmədyarova Gülsurə Şükür qızına** verilmiş JN seriyalı 732AG nömrəli (kod 40614018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Məmmədova Kəmalə Abdı qızına** verilmiş JN seriyalı 971F nömrəli (kod 40601004) **torpağın mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon DNL-nın 06 fevral 2006-cı il tarixli 4Ə-0/569 nömrəli alqı-satqı müqaviləsi ilə Bum kənd sakini **Qəribov Əmir Bəhərçin oğluna** verilmiş JN seriyalı 1313 nömrəli (kod 40600038) **torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi BDYPİ QİI tərəfindən 01.11.2018-ci il tarixdə VAZ 21043, buraxılış ili 2007, seriya və nömrəsi AD371370 olan minik avtomobilinə verilmiş **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 dekabr 2002-ci il tarixli 17 saylı qərarı ilə Nohurqışlaq kənd sakini **Mehralıyeva Miyasə Gülənməd qızına** verilmiş JN seriyalı 488B nömrəli (kod 40616028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Xırxatala kənd sakini **Xələfov Məhəmməd Mikayıl oğluna** verilmiş JN seriyalı 173B nömrəli (kod 40605038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **İbrahimova Əsmayə Fərəcullah qızına** verilmiş JN seriyalı 1164F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Mollaşıxalı kənd sakini **Şıxıyev Nadir Bədir oğluna** verilmiş JN seriyalı 027F nömrəli (kod 40607028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# Qəlblərdə yaşayan ömür yolu

Müəllim adı hər birimiz üçün müqəddəs və əzizdir. Bu adı qazanmaq, bütün ömrü boyu varlığı ilə həyatımız, yaşayışımız üçün vacib olan çətin və şərəfli peşənin yollarında daim əzmlə mübarizə aparmaq, gələcək ziyalı nəsil yetişdirmək müəllim əməyinin bəhrəsidir. Müəllim ürəyi daim bizimlə döyünür, müəllim həyatı tamamilə bizlərə həsr olunur. Gənc nəslin gələcəyi naminə saç ağardan, ömrünü fəda edən bu peşə sahibləri hər zaman hörmətlə qarşılanır. Gələcəyin müəllimlərini, həkimlərini, mühəndislərini bir sözlə xoş, firavan həyat üçün savadlı ziyalı nəsillər yetişdirmək müəllim əməyinin bariz nümunəsidir. Bu günlərdə aldığım bir xəbər məni çox sarsıtdı. Çox təəssüflər olsun ki, mən onun haqqında keçmiş zamanda danışıram. Sadəliyi, gözəl məsləhət və nəsihəti, uzaqgörənliyi ilə hər bir şagirdin sevimlisi, əzizi olan Bilqeyis Kərimova bizlərə vida etdi. Qəbələnin fəxri, Əməkdar Müəllim, savadlı ziyalı, qayğıkeş insan Bilqeyis müəllim hər birimizin sevimlisi idi. Məktəb həyatından ayrılsaq da onunla bağlı xatirələr qəlbimizdən, nurlu siması gözümüz önündən uzaqlaşmır. Özünəməxsus metodu vardı Bilqeyis müəllimin. Fizikanı yaxşı mənimsəyə bilməyən, açıqcasına deyim ki, bu fənni sevməyən şagirdlərə də elə yollarla anladardı ki, hamı sevərdi bu fənni. Oxumağı, bir elmə sahib olmağı hər birimizə gündəlik olaraq bir müəllim borcu kimi xatırladardı, beynimizə həkk edərdi. Məktəbin, uşaqların sevimlisi, Qəbələnin hörmətli ziyalısı idi. Artıq o, cismən yoxdur dünyada. Onunla bağlı unudulmayan xatirələr qaldı dünyada. Allah sizə rəhmət eyləsin Bilqeyis müəllim,-yeriniz cənnət olsun. Siz bir yanar çıraq idiniz, daim yanırdınız.İndi bu çıraqdan qığılcım, alov götürən neçə-neçə çıraqlar yanır. İndi dünyada olmasanız da Qəbələdə hər bir ailədə, hər bir evdə adınız şərəflə çəkilir, şirin xatirələrdə yaşayırsınız. Sizi tanıyanlar Sizdən bəhrələnən qəbələlilər ruhunuza rəhmət deyirik. Adınız dillərdə, qəlblərdə yaşayacaq.

**İlhamə SEYİDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi**

# Elan

Qəbələ Rayon Aydınqışlaq kənd bələdiyyəsi "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq bələdiyyə üzvlərinin və bələdiyyənin səmərəli fəaliyyətini təmin etmək, ərazisində fiziki şəxslərdən vergilərin yığılması, uçot-qeydiyyat, maliyyə və digər müvafiq işlərin aparılması məqsədilə bələdiyyə qulluqçusu vəzifəsinə vakant yer elan edir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Təhsil Şöbəsinin kollektivi əməkdar müəllim
**Kərimova Bilqeyis Zümür qızının**
vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ şəhər 1 saylı orta məktəbin kollektivi sabiq iş yoldaşları
**Kərimova Bilqeyis Zümür qızının**
vəfatı ilə əlaqədar mərhumun ailəsinə və əzizlərinə dərin hüznlə başsağlığı verir və kədərləndiklərini bildirirlər.

Bunud kənd tam orta məktəbin kollektivi məktəbin direktoru Vəli Vəliyevə həyat yoldaşı
**Gülxanım Vəliyevanın**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bunud kənd tam orta məktəbin kollektivi iş yoldaşları Afətə qardaşı
**Nurəddinin**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verirlər.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1500*